Tolerantlığın unikal modeli olan Nic qəsəbəsinə ilk dəfə təbii qaz verilib

Qəbələ rayonunun ən böyük yaşayış məntəqələrindən biri olan Nic qəsəbəsinə ilk dəfə təbii qaz verilib.

Qəsəbəyə təbii qazın verilməsi münasibətilə sentyabrın 17-də keçirilən mərasimə Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev, Milli Məclisin deputatı, Respublika Ağsaqqallar Şurasının sədri Fəttah Heydərov, «Azəriqaz» İstehsalat Birliyinin ictimaiyyətlə əlaqə şöbəsinin müdiri İbrahim Kərbalayev və qəsəbə sakinləri qatılıblar.

Tədbirdə çıxış edən Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev qəsəbə sakinlərini ilk dəfə təbii qazdan istifadəyə başlamaları münasibətilə təbrik edib. Səbuhi Abdullayev qeyd edib ki, 1525 abonenti olan Nic qəsəbəsinin qazlaşdırılması üçün birpilləli sistem əsasında 1505 metr müxtəlif diametrli polietilen və 194 min 966 metr müxtəlif diametrli metal borularla daşıyıcı və məhəllədaxili qaz xətləri çəkilib, mənzillərə 1525 sayğac və fərdi tənzimləyici quraşdırılıb.

Qəsəbə ağsaqqalları, ziyalılar çıxışlarında əhaliyə ilk dəfə təbii qazın verilməsinin əsil bayrama çevrildiyini bildiriblər. Qeyd edilib ki, müsəlmanlar və xristianların birgə, mehriban şəraitdə yaşadığı Nic qəsəbəsi tolerantlığın unikal modelidir. Belə ki, Nic qəsəbəsində 3 kilsə və iki məscid var. Altı min nəfər əhalisi olan qəsəbədə 3700 udi yaşayır. Qəsəbədə udilər öz dilini, dinini, adət-ənənələrini 2500 ildir ki, qoruyub saxlayırlar.

Vurğulanıb ki, keçmiş sovetlər dönəmində udilərə öz ölkəmizin bir çox yaşayış məntəqələri qazlaşdırılsa da, Qəbələnin böyük qəsəbəsi olan Nicə təbii qaz xətti çəkilməyib. Ancaq Azərbaycan müstəqillik əldə etdikdən sonra udilər öz milli bayramalarını hər il qeyd ediblər. Onlara yaradılan imkanların bariz bir nümunəsi də Heydər Əliyev Fondunun dəstəyi ilə "Cotari" məbədinin əsaslı təmir və bərpa olunaraq udilərin istifadəsinə verilməsidir. Qəsəbədə yeni məktəblər inşa edilib, yollar asfaltlanıb, geniş abadlıq işləri görülüb və müasir park salınıb.

Çıxışlardan sonra qəsəbəyə təbii qazın verilməsi münasibətilə rəmzi məşəl alovlandırılıb.

Mərasim iştirakçıları evlərə baş çəkib, qəsəbə sakini Elsevər Süleymanovun mənzilində "mavi yanacağ"ı şölələndiriblər.

Ölkəmizdə reallaşan sosial layihələrdən öz çıxışında bəhs edən Fəttah Heydərov hər bir kənddə qazlaşdırmanın xüsusi diqqət mərkəzində saxlanıldığını və respublika üzrə bu layihənin uğurla başa çatdırılacağını bildirib.

milli bayramlarını qeyd etmək qadağan olunub, "Cotari" Udi-Alban kilsəsinin fəaliyyəti dayandırılıb. Həmçinin o dövrdə

«Qəbələ».

Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Azərbaycandakı səfiri Qəbələdə

Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Azərbaycan Respublikasındakı səfiri xanım Karol Krofts tanışlıq məqsədi ilə Qəbələdə səfərdə olmuşdur. Hörmətli qonağı rayon icra hakimiyyətinin başçısı cənab Səbuhi Abdullayev qarşılamışdır. Səfirə rayonun tarixi, iqtisadiyyatı, sosial və mədəni həyatının inkişaf istiqamətləri barədə ətraflı məlumat verilmişdir. Bildirilmişdir ki, Qəbələnin qədim tarixi keçmişi və zəngin təbiəti burada turizmin inkişafı üçün stimul verir. Ölkə başçısı cənab İlham Əliyev tərəfindən yüksək qiymətləndirilən bu keyfiyyətlər Qəbələdə müasir turizm infrastrukturunun yaradılmasına və bölgənin beynəlxalq turizm məkanına çevrilməsinə geniş yol açmışdır.

Burada sürətlə inkişaf edən sənaye müəssisələrində istehsal olunan məhsullar dünyanın bir çox ölkələrinə ixrac edilir.

Mehriban insanları və qonaqpərvərliyi ilə seçilən Qəbələ artıq bu gün beynəlxalq tədbirlərə də ev savibliyi edir.

Azərbaycanla Böyük Britaniya arasındakı münasibətlərdən söz açan RİH başçısı ölkələrimiz arasında əlaqələrin sürətlə inkişaf etdiyini və ikitərəfli münasibətlərin perspektivlərinin gələcəyə doğru geniş üfüqlər açdığını vurğulamışdır.

Qəbələ rayonu ilə tanışlığından məmnunluq hissi keçirdiyini ifadə edən xanım Karol Krofts bölgənin füsünkar bir məkan olduğunu qeyd etmişdir. Səfir Azərbaycanla Birləşmiş Krallıq arasında yüksək səviyyəli siyasi, iqtisadi əməkdaşlıq mövcud olduğunu söyləmişdir. O, qeyd etmişdir ki, ölkələrimiz arasındakı ikitərəfli əlaqələrin digər mühüm istiqamətini təhsil, mədəni mübadilə və xalqlar arasında mövcud olan dostluq münasibətləri təşkil edir. Hər il yüzlərlə azərbaycanlı gənc Böyük Britaniya universitetlərinə təhsil almağa gəlir. Hər iki dövlət arasında mədəni mübadilə və insanlar arasındakı münasibətlər qarşılıqlı xarakter daşıyır.

Səfər çərçivəsində xanım Karol Krofts rayonun tarixi-mədəni məkanları, sənaye müəssisələri və turizm sektoru ilə yaxından tanış olmuşdur.

Zahir KƏRİMOV,
RİH-nin informasiya təminatı və təhlili sektorunun müdiri.
Fotolar İ. Vəlizadənindir.

BTC kəmərinin təməli qoyulduğu gündən 14 il keçdi

2002-ci il sentyabrın 18-də Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri təməlinin qoyulmasından 18 il keçdi. Bakıdan 55 kilometr cənubda yerləşən Səngəçal terminalında kəmərin təməlinin qoyulması tədbirində ümummilli lider Heydər Əliyev, Gürcüstanın və Türkiyənin dövlət başçıları, ABŞ-ın energetika naziri, layihənin tərəfdaşları olan tanınmış xarici şirkətlərin səlahiyyətli nümayəndələri iştirak etmişlər. Mərasimdə kəmərin təkcə iqtisadi tərəfi deyil, həm də siyasi əhəmiyyəti qeyd olunmuş və bu boru xətti Azərbaycanı digər ölkələrlə birləşdirən polad kəmər adlandırılmışdır.

Çoxlu və mürəkkəb maneələrdən sonra 2004-cü ilin fevral ayında Bakıda, «Gülüstan» sarayında Prezident İlham Əliyevin iştirakı ilə BTC-nin maliyyələşməsinə aid son sənədlər imzalandı və problemlər tamamilə həll olundu. 2005-ci ilin may ayında Səngəçal terminalında kəmərə ilk neft vuruldu və 2006-cı ilin may ayının 28-də ilk neft Ceyhan terminalına çatdırıldı.

İndi kəmərin təməli qoyulan nöqtədən başlanan yollar dünyaya şaxələnərək daha uzaq yerlərə çatmaqdadır.